# Qaşqaylar və onların folkloru

Folklorşünas alim Əli Şamilin "Qaşqaylar və onların folkloru" kitabını oxuculara təqdim edirik

*əvvəli ötən saylarımızda*

**Tehranda aydınlarla görüş**

**Şirazdan Tehrana dönəndən bir neçə saat sonra Saminin qardaşı Siyaməkin evində bir ədəbi məclis qurduq. Mirzə ləqəbli şair Kərim Şəhrək, tanınmış naşir Səid Muğanlı, nəşriyyat və kitab yayımı ilə məşğul olan tarix həvəskarı İsmayıl Yusufoğlu, ədəbiyyat aşiqi Əli Himməti (Əlinin dediyinə görə, soyadı Ərəbcədəki hümmət (birlik) sözündən deyil, Hun beti kəlməsindəndir) gəlmişdi.**

Söhbətin əsas mövzusu Azərbaycan Respublikasında nəşr olunan kitabların İran İslam Respublikasında nəşri məsələsi oldu. Nəşr olunan kitabların sayı gündən-günə artsa da, keyfiyyətinin məni qane etmədiyini bildirdim. Səbəb kimi də onların nəşr etdikləri kitabların əksəriyyətinin Sovet dövründə çap olunmuş, Sovet ideologiyası hopmuş kitablar olduğunu söylədim. Onu da qeyd etdim ki, Məmməd Səid Ordubadinin 12-ci yüzilin hadisələrindən bəhs edən "Qılınc və qələm" romanı belə ideoloji yöndən uzaq deyil. Bu məsələdə elə bir ciddi fikir ayrılığımız olmadı. Dedilər ki, o taydan əlimizə keçən, məşhur olan əsərləri nəşr etməyə üstünlük veririk. Səbəbi də odur ki, kitabı alan olsun. Səid Muğanlı bildirdi ki, İsmayıl Vəliyevin çevirdiyi və ön söz yazdığı qədim Şumer (Sumer) dastanı "Gilqamış"ı böyük həvəslə min nüsxə nəşr etdim.

Düşünürdüm ki, qısa bir zamanda satılacaq, mən onu təkrar-təkrar çap edəcəm. Gözlədiyim kimi olmadı. Kitabdan 200 dənəsini belə sata bilmədik. Qalanı neçə illərdi anbarda qalıb, yer tutur.

Söz verdim ki, Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra yazılmış və nəşr edilmiş tarixi roman və povestlərin elektron variantlarını onlara göndərəcəm. 3-4 saat davam edən söhbətin sonu Kərim Şəhrəkin şeirləri ilə bitdi.

Təbrizdə yaşayan dostum Seyid Məhəmməd Hüseyni biz Tehrana yola düşəndən sonra zəng vuraraq Kərim Şəhrəki ilə görüşməyimizi bərk-bərk tapşırmışdı. Müasir texniki imkanlara baxmayaraq, Tehran kimi bir şəhərdə arzuladığın adamla görüşmək heç də asan olmur. Şəhərin böyüklüyü, nəqliyyatın sıxlığı, iş-gücün çoxluğu adamların görüşməsinə əngəl olur. Vacib bir işin olanda belə istədiyin məntəqəyə getmək bəzən 4-5 saat çəkir.

Bəxtimdən, Seyid Məhəmməd Hüseyninin tapşırığını yerinə yetirməyə, Kərim Şəhrəki axtarmağa vaxt sərf etməmişdim, planlaşdırmadığım halda özü gəlmişdi. Sakit, səmimi və mehriban bir insan olan Kərim Şəhrəklə öncələr görüşsək də, adı yadımda qalmamışdı. O, son şeirlərindən bir neçəsini oxudu. Şeirlərinin ruhu da özü kimi sakit və qəlboxşayan idi.

Görüşümüzüm sonunda naşirlər çap etdikləri kitablardan nümunələr bağışladılar.

**Vəkil, şair, alim və sənətkarlarımız**

Səhərisi günü Sami Sərdarimillini Təbrizə yola salıb, Aqşin Ağkəmərligilə getdik. Aqşin Ağkəmərli ilə 1992-ci ildə Tehranda tanış olmuşuq. Əsilləri Güney mahalından – Şəbüstərdəndi. Ailəliklə köçüb Tehranda yaşayırdılar. Diş həkimi işləsə də, ədəbiyyatımıza, mədəniyyətimizə ürəkdən bağlı olan birisidir. Milləti üçün əlindən gələni əsirgəmir. Gah şeir yazır, gah uşaqlar üçün ana dilində kitabçalar hazırlayır, gah da aktyorluq, rejissorluq edir. İşindən ayrılıb bizi Tehranı gəzdirən, aydınlarla tanış edən, Şah Əbdüləzim kompleksində Səttarxan Sərdarimillinin qəbrini tapıb ziyarət etməyimizə şərait yaradan, Məşrutə qəhrəmanının qızı Məsumənin evinə gedib onunla müsahibə almamıza şərait yaradan da Aqşin bəy olmuşdu. 1992-ci ildə başlayan tanışlığımız ailəvi dostluğa çevrildi. Bu da səbəbsiz deyildi. Aqşin Ağkəmərli o tayla bu tay arasında körpü rolunu şərəflə daşıyır. Birinin xəstəsinə dərman lazımdır gətirdir, başqa birisinin xəstə tanışını Tehranın, Təbrizin xəstəxanalarına aparıb müalicə etdirir. Onun turizm şirkəti yoxdu. Amma İran İslam Respublikasından Aqşinin adına gəlib Bakını, Azərbaycanın müxtəlif şəhər və kəndlərini gəzənlərin, qohumlarını axtaranların sayı turist şirkətlərinin müştərilərindən heç də az deyil.

Ailəsi ilə Bakıda yaşayan Aqşin Ağkəmərli ildə bir neçə dəfə o taya gedir. Bizim Şiraza, Qaşqaylarla görüşə getməyimizdən də xəbərdar idi. Bərk-bərk tapşırmışdı ki, geri dönəndə onu Tehranda görək. Mən də zarafatla "Aqşin bəy, hesabatımızı Bakıda qəbul etməyə səbrin çatmadımı?"- deyə soruşanda gülərək bildirdi: "Həm elədi, həm də buradakı dost-tanışlarıma demək istəyirəm ki, Bakıdan gəlib Qaşqaylarla görüşə gedirlər, Siz Tehranda yaşaya-yaşaya Qaşqaylarla, Xələclərlə, Sunqurlarla, Qızılbaşlarla sıx əlaqə qurmursunuz!"

Buna görə də, Aqşin Ağkəmərlinin tapşırığını yerinə yetirdik. Aqşin Tehranda anasığildə qalırdı. Biz oraya gedəndə bacıları da görüşmək üçün gəlmişdilər. Bir az söhbət etdikdən sonra Aqşin bəy dedi: "Xanımlar söhbətlərini davam etdirsinlər. Bizi gözləyirlər. Gedək biz də orada söhbətə başlayaq".

Tehran Dəmavənd dağının ətəyində yerləşdiyindən şəhərin güney məhəllələrində havanın temperaturu 40 dərəcəni keçəndə belə quzeyində, yəni dağın yamacındakı məhəllələrdə havanın temperaturu 25-30 dərəcəni keçmir. Biz də isti məhəllədən sərinə getməliydik.

Şəhərdə sıxlıq olduğundan istədiyin yerə minik maşını ilə getmək çox vaxt aparır. Metro da hər yerə işləmir. Buna görə də, Aqşin bir motoreller alıb anasının qaldığı evin zirzəmisində -maşın qarajları olan yerdə saxlayır. Motoroller maşın sıx olan yerlərdən də asan keçir. Bəzən tıxac olan yerlərdə motorolleri səkiyə çıxmalı olurduq. Beləcə vaxt itirmədən Afrika xiyabanının qüzeyindəki müasir layihələr əsasında hazırlanmış məhəlləyə gəldik. Aqşinin dediyinə görə, bura bir növ ofislər səhərciyidir. Adamlar gündüz burada - yaylaqda işləyir, axşam da şəhər mərkəzindəki evlərinə dönürlər. Biz də Tehranın tanınmış vəkillərindən olan Səccad Səidmehrin ofisinə çatdıq. Əslən Urmiyadan olan Səccad Səidmehr uzun müddətdir Tehranda yaşayır. Cümə günü olduğundan ofisə gələn-gedən yox idi. Səccad Səidmehr dostları Cavad Dərbəndi və Nasir Məhəmmədzadə ilə bizi gözləyirdilər. İranda dost-tanışların bir yerə toplanma, söhbətləşmə, özləri üçün əyləncələr təşkil etmə ənənəsi var. Əslində bunlar bir dərnək rolunu oynayır. Lakin adamlar rejimin bürokratik əngəllərinə görə belə toplantılara dərnək adı verib rəsmiləşdirmirlər. Səccad Səidmehrin əsas peşəsi vəkillik olsa da, necə deyərlər, ailəsini vəkillikdən qazandığı pulla keçindirsə də, gözəl şair, yazıçı kimi də tanınır. Kitablarını da vəkillikdən əldə etdiyi pulla nəşr etdirir.





Şəkildə soldan Cavad Dərbəndi, Əli Şamil, Səccad Səidmehr və Nasir Məhəmmədzadə

Orada tanış olduğum Cavad Dərbəndi də vəkildir. Əsli Marağadan olan Cavad Dərbəndi dostları və tanışları arasında gözəl ney ustası kimi tanınır. Onun saza marağı da vəkilliyə və ney çalmaya olan həvəsindən az deyil. Sadəcə, dost-tanış məclisində saz çalmaqla kifayətlənmir. 30 ilə yaxındır aşıqlarımız haqqında bilgi toplayır, ömür yollarını dəqiqləşdirir, şeirlərinin nəşrinə və kasetlərinin hazırlanıb yayılmasına yardımçı olur.

İranda yaşayan aşıqlar haqqında ensiklopedik bilik sahibi olan Cavad Dərbəndi 3 cildlik kitab nəşr etdirib. Ərəb əlifbası ilə hər biri 700-800 səhifə olan bu kitabda Dərbənd, Borçalı, Göyçə, Gəncə, Şirvan və b. bölgələrimizdən olan aşıqlar haqqında bilgiyə rast gəlmək olar. Dəfələrlə Azərbaycan Respublikasında olan Cavad Dərbəndi kitabının 4-cü cildi üçün materiallar toplayır.

Tanış olduğum təbrizli rəssam Nasir Məhəmmədzadə qəribə taleyi ilə diqqətimi çəkdi. Tehranda yaşayırmış. Güzaranı da yaxşıymış. Övladları pul qazanmaq üçün Cüney Afrikaya gedirlər.

Orada iş yeri açırlar. Lakin uğur qazana bilmirlər. Ata övladlarının ardınca Kemtavu şəhərinə gedir. Onlara yardımçı olmağa çalışır. Beləcə, özü də Güney Afrikada qalıb işləməli olur.

Söhbətimizin əsas mövzusu ədəbiyyatdan, incəsənətdən, Qaşqay ellərindən, Türk dünyasından oldu. Hərdən başqa dostları gəlsə də, çox oturmadılar. Bizim söhbətimiz isə 4 saatdan çox çəkdi.

Orada olduğum vaxt diqqətimi çəkən bir şey oldu. Süfrəyə müxtəlif meyvələr qoymuşdular. Onların arasında qırmızı qarağat da vardı. Mən xəbər aldım ki, bunu haradan almısınız? Səccad bəy dedi ki, yaxınlıqda bağ var, oradan yığıb gətirib. Elə bil dilər ki, Azərbaycan Respublikasında qırmızı qarağat bitmədiyinə görə maraq göstərdim. Başqa meyvələrə deyil, qırmızı qarağatın haradan alınması ilə maraqlanmağımın səbəbini izah etdim.

Təbrizdəki bəzi dostlarim qırmızı qarağatı çox sevirlər və ondan dərman kimi istifadə edirlər. Buna görə də, hər yay onlara qırmızı qarağat göndərməyə çalışıram. Görüşəndə də deyirəm ki, niyə özünüz qırmızı qarağat kolu əkmirsiniz. Deyirlər ki, bu tayda qırmızı qarağat yoxdu. Mən Təbriz bazarında qırmızı qarağat görməsəm də, inana bilmirdim ki, İranda bu bitki olmasın. Onlara deyirdim, ola bilməz ki, İranda qırmızı qarağat olmasın. Siz diqqət yetirməyibsiniz. Onlar öz dediyində qalırdılar. Buna görə də, Tehrandan Təbrizə zəng vurub dostlarıma süfrədəki qırmızı qarağatı göstərdim və Səccad Səidmehrlə danışdırdım. Dedim ki, Tehrana gələndə ondan qırmızı qarağat kolu alıb bağçanızda basdırın. Yeni tanış olduğum aydınlar söz verdilər ki, gələn il mən İran İslam Respublikasına gələnə kimi onlar Xorasan, Sunqur, Xələc və b. bölgələrdə yaşayan Türklərlə əlaqə quracaqlar və bizi də oraya aparacaqlar.

Axşam sərini düşəndə Aqşin bəyin anasıgilə qayıtdıq. Bir azdan İsmayıl Yusufoğlu da oraya gəlib öz maşını ilə bizi Tehrandakı Xomeyni aeroportuna apardı. Beləcə, Qaşqay elinə ikinci səfərimizi də başa vurub Bakıya döndük.

*ardı var...*